**“İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli 152 nömrəli qərarına əlavə və dəyişikliklər edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009 — 2013-cü illər)”nın“İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı (2009 — 2013-cü illər)”nın 7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. “İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli 152 nömrəli qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 6, maddə 579) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1.1. 1-ci bənddə “şərti maliyyə vahidinin 30 misli” sözləri “200 manat” sözləri ilə əvəz edilsin;

1.2. 2-ci bənd 3-cü bənd hesab edilsin və aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

“2. Müəyyən edilsin ki, bu qərarın 1-ci bəndi ilə bağlı maliyyələşdirmə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.”.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

**Bakı şəhəri, 27 may 2010-cu il**
**№ 99**